**Barat Vüsal**



# MƏBƏD

*Sənə bir şey olarsa, onda bil ki, ey Vətən,*
*Oğlun dara çəkilib...ürəyindən asılıb.*
*Mənim Azərbaycanım, o üç rəngli bayrağım*
*Hardan asılsa gördüm,*
*Ürəyimdən asılıb!*

*Mən ora yer demərəm, yer məbədlik deyilsə,*
*Adam harda yaşayar, əgər məkan olmasa.*
*Bu ürəyim sinəmdə əbədilik döyünsə,*
*Ona ürək demərəm,*
*Azərbaycan olmasa!*

*Torpağıma bağlıyam, bayrağıma bağlıyam,*
*Mən gərək yaşadıqca bu sevgidən doymayam!*
*Qan deyil damarımda belə coşan, çağlayan,*
*Bayrağımdı çağlayan...*
*Bayrağımdı oynayan!*

*Bayrağımın ey Vətən, keşikçisi mənəm, mən,*
*Sənə qurbandır ömür, ona qurbandır ömür.*
*Bayrağına bükülən şəhid ürəyə dönür,*
*Döyüşlərə yollanır...*
*Sinələrdə döyünür!*

*Öz dərdinə-qayğına axı qalmağa nə var,*
*Yurd dərdini çəkəsən gözdən od yağa-yağa...*
*Dünyada şeir yazıb, şair olmağa nə var,*
*Mən gəlmişəm dünyaya*
*Azərbaycan olmağa!*

*Ürəyimin eşqi var, ürəyimin tabı var,*
*Hər nə olsa hazıram, ürəyimdən asılı...*
*Düz tapıblar, bayrağın yerini düz tapıblar,*
*Vətən, bir bax, bayrağın*
*Ürəyimdən asılıb!*

*Ürəyimdə oxşaram, gözlərimə təpərəm,*
*Ey Vətən, ölərəm ki, qoy bayrağım ölməsin.*
*Qanımı bayrağının üzərinə səpərəm,*
*Səpərəm ki, heç zaman*
*Rəngin-rufun solmasın!*

ədalət.- 2020.-3 noyabr